# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib



3

№ 229 (7397)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

12 dekabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Prezident İlham Əliyev: "Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur"



2

# Əbədiyaşar LİDER!

**12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin Anım Günüdür**



## YAP Mərkəzi Aparatında görüş keçirilib



3

## Distant təhsil: müasir dövrün tələb etdiyi sahələr hansılardır?



5

## DİQQƏT: bu şəxslərin ölkədən çıxışına qadağa qoyula bilər




8

## AXCP və Müsavatın fəaliyyətinə xitam verilməsinin vaxtı yetişib



6

## Qadınlar kişiləşir, kişilər qadınlaşır...



7

# Müstəqil Azərbaycanın qurucusu Dahi Şəxsiyyət!



***Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hər zaman böyük ehtiramla anırıq. Ümummilli Lider bəşəri dəyərlər zəminində xalqın müstəqillik məfkurəsini reallığa çevirməklə müasir dövlətçilik sistemimizin mükəmməl siyasi-ideoloji, iqtisadi və mənəvi dayaqlar sistemini yaradıb. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi Şəxsiyyətdir. Ulu Öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür.***

XX əsr tarixində dahi Şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixinin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur. Bu Dahi İnsan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elmini öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz xəzinə, bir məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin hər birinin uğurlu gələcəyimizə hesablandığını görərik. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Bütün həyatı boyu həmişə xalqının yanında olan Heydər Əliyev 1990-cı ildə törədilmiş 20 yanvar faciəsi zamanı Azərbaycan xalqına qarşı həyata keçirilən siyasətə etirazını bildirdi. Bu etiraz ona qarşı siyasi təqiblərin daha da şiddətlənməsinə səbəb oldu. Çətin və mürəkkəb dövrdə Azərbaycana qayıdıb xalqı ilə birlikdə olmaq istəyən Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, iradəsini ortaya qoydu və vətənə döndü. 1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşdü.

### TARİXİ QƏRARLARIN QƏBULU

Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu. Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

Ulu Öndər həmin dövrdə xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atıb, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalayıb. Nəticədə hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub. Muxtar Respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də görkəmli dövlət xadiminin diqqət mərkəzində olub. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilib, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olub.

### TARİXİMİZİN MÜHÜM HADİSƏSİ

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə 1992-ci il noyabrın 21-də yenə də Naxçıvanda baş verib: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradılıb. Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoyub. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə Ulu Öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

### "İCTİMAİ-SİYASİ SABİTLİK OLMASA, SAĞLAM İCTİMAİ-SİYASİ MÜHİT OLMASA, HEÇ BİR SOSİAL-İQTİSADİ PROQRAMDAN, YAXUD PROBLEMLƏRİN HƏLL EDİLMƏSİNDƏN SÖHBƏT GEDƏ BİLMƏZ"

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Elmi əsaslarla beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Milli Ordu formalaşdı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı və bunun nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. şöhrətli siyasətçi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzindəki fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr edilmişdir. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Heydər Əliyev. Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı.

### HEYDƏR ƏLİYEV İDEYALARI YAŞAYIR

Qısa bir zamanda ölkənin sənaye ölkəsinə çevrilməsində, hərbi potensialının gücləndirilməsində, kadr potensialının hazırlanmasında və s. proseslərdə uğurlar müşayiət olundu və bütün sahələrdə dönüş yarandı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı.

Bu gün ölkəmizdə Ümummilli Liderin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan uğurla inkişaf edir. Bu gün Azərbaycan dünyada müstəqil siyasət yürüdən nüfuzlu dövlət, etibarlı tərəfdaş kimi tanınır və qəbul olunur. Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasəti Azərbaycan xalqı tərəfindən birmənalı şəkildə dəstəklənir. 2003-cü ildən sonrakı dövrdə keçirilmiş bütün seçkilərin nəticələri bu dəstəyin bariz nümunəsidir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Azərbaycanın mövqeyini nəzərə alırlar. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir. Zamanın axarında Azərbaycan da, həyatımız da tamamilə dəyişib. Vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin ideyaları yaşayır, yollarımızı daim işıqlandırır.

***Nəzakət ƏLƏDDINQIZI***



## Prezident İlham Əliyev: "Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur"

"Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin inkişafına, müxtəlif sahələrdə, xüsusilə də energetika, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlığımızın genişlənməsinə böyük önəm veririk."

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Keniya Prezidenti Uillyam Samoei Rutoya bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb. "Sentyabr ayında Nyu-Yorkda Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə dostluq əlaqələrimizin möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın dərinləşməsinə nail olacağıq", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun XII sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin dekabrın 11-də növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma fəaliyyətinin prioritet istiqamətlərdən biri olduğunu deyib. Ölkəmizdə bu sahədə formalaşdırılmış müasir yanaşmaların iqtisadi dayanıqlılığın möhkəmləndirilməsinə, sosial rifahın artırılmasına və iqlim dəyişikliklərinə səmərəli uyğunlaşmanın təmin olunmasına xidmət etdiyini söyləyib.

Samir Nuriyev son beş il ərzində xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını, sistemli planlaşdırma prinsiplərini rəhbər tutduğunu və yüksək icra potensialını aydın şəkildə nümayiş etdirdiyini vurğulayıb. Azərbaycanın postmünaqişə dövründə tətbiq edilən sürətli bərpa və quruculuq işlərinin yeni inkişaf modelini formalaşdırdığını deyib.




Təşkilat Komitəsinin sədri bu nailiyyətlərin Azərbaycanın təcrübəsinə beynəlxalq səviyyədə də marağı artırdığını, ölkəmizi bu sahədə etibarlı tərəfdaş kimi tanıtdığını qeyd edib. O, WUF13-ün 2026-cı ildə Bakı şəhərində keçirilməsinin Azərbaycanın beynəlxalq şəhərsalma proseslərinə verdiyi töhfənin, dayanıqlı inkişaf istiqamətində həyata keçirdiyi siyasətin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın bariz göstəricisi olduğunu söyləyib.

Samir Nuriyev WUF13-ə hazırlığın dövlətimizin başçısının birbaşa diqqət mərkəzində olduğunu vurğulayaraq, ilk iclasdan ötən müddətdə bu tədbirə hazırlıq çərçivəsində görülmüş işləri qeyd edib. Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, təşkilati-logistika sahələrində görülmüş işlər və gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə əlaqədar qarşıya qoyduğu vəzifəyə uyğun olaraq WUF13-ə hazırlıq prosesi, o cümlədən Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

# YAP Mərkəzi Aparatında görüş keçirilib

***Dekabrın 11-də Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Meyin təşəbbüsü ilə Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin 4-cü plenumu və Çinin 15-ci beşillik inkişaf proqramına dair məlumatları bölüşmək məqsədilə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında görüş keçirilib.***





Görüşdə partiyanın İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar, YAP Mərkəzi Aparatının əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.



YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının (ÇKP) Baş katibi Si Cinpinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin milli maraqlarına və müasir qlobal çağırışlara cavab verdiyini qeyd edib. O, Prezident İlham Əliyevin cari ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək iqtisadi-ticari, enerji təhlükəsizliyi, nəqliyyat-logistika, elm və texnologiya, təhsil, mədəniyyət, humanitar və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini və yüksəksəviyyəli dialoqun uğurla davam etdirildiyini vurğulayıb.

YAP Sədrinin müavini Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin müstəsna rolunu qeyd edib. O, 2024-cü ilin noyabr ayında YAP ilə ÇKP-nin Əməkdaşlıq memorandumu imzalamasının önəmini diqqətə çatdıraraq dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi hakim partiyalar arasında fəal siyasi dialoq şəraitində təmasların intensiv xarakter daşıdığını vurğulayıb, qarşılıqlı səfərlərin münasibətlərin mövcud durumunun dəyərləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.







YAP ilə ÇKP-nin Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlığı əsas götürərək birgə fəaliyyəti müvəffəqiyyətlə davam etdirmək və yeni uğurlara imza atmaq əzmində olduqlarını bildirən Tahir Budaqov səfir Lu Meyin təşəbbüsü ilə keçirilən görüşün qarşılıqlı fikir və təcrübə mübadiləsinin gücləndirilməsi baxımından son dərəcədə əhəmiyyətli olduğunu qeyd edib.

Səfir Lu Mey Azərbaycanla Çin arasında əlaqələrin bütün sahələr üzrə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib. O, hakim partiyalar arasında imzalanan Əməkdaşlıq memorandumu çərçivəsində görülən işlərin həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olmaqla müştərək maraqları təmin etdiyini bildirib.

Daha sonra Lu Mey ÇKP Mərkəzi Komitəsinin 4-cü plenumu və Çinin 15-ci beşillik inkişaf proqramına dair geniş məlumat verib. O bildirib ki, 2026-2030-cu illəri əhatə edəcək strateji plan bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan Çin xüsusiyyətli sosializm konsepsiyasının mühüm tərkib hissəsi olmaqla ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafına hədəflənib.

Səfir, həmçinin Çinin dövlət idarəetməsinin təkmilləşdirilməsi sahəsində yeniliklərdən və partiya quruculuğu təcrübəsindən bəhs edib. İnteraktiv formada davam edən görüşdə tədbir iştirakçılarının qarşılıqlı maraq doğuran məsələlərə dair sualları cavablandırılıb.

# Heydər Əliyev: Azərbaycanın rəmzi

Ümummilli Lider Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

## Qeyri-adi idarəçilik bacarığı və polad iradə

Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Ümummilli Lider özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı o illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdir. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı. Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.



1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üçcildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, Ümummilli Liderimizin sözləri ilə desək: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

## Azərbaycanda Yeni Azərbaycan

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Heydər Əliyev əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən böyük şəxsiyyətdir. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

## Ötən 22 il: Ümummilli Liderin müəyyən etdiyi strategiya

Ulu Öndərin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri ölkəmizin başçısı ilə hesablaşır, ona hörmət və ehtiramla yanaşır.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 22 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündəngünə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 22 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük.

Bəli, ordu quruculuğunu xüsusilə vurğulamalıyıq. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti onları tərk etmirdi. Onlar öz torpaqlarını istəyirdilər. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağaldırsa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

## Ulu Öndərin arzuları reallaşdı

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi Liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu. 2023-cü ilin 20 sentyabrında həyata keçirilən antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam bərpası ilə nəticələndi. Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 22 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir.

*Mətanət Məmmədova*

# Distant təhsil: müasir dövrün tələb etdiyi sahələr hansılardır?

***Distant təhsil (onlayn tədris) son illərdə qlobal miqyasda əsas təhsil modellərindən birinə çevrilib. İnternet infrastrukturunun güclənməsi, rəqəmsal platformaların inkişafı və təhsil resurslarına çevik çıxış imkanlarının artması bu modelin tətbiq sahəsini xeyli genişləndirib. Distant təhsilin üstünlükləri - məkan sərbəstliyi, vaxt elastikliyi, geniş auditoriyaya çıxış, maliyyə qənaəti - onu həm formal, həm də qeyri-formal təhsil proseslərinin ayrılmaz hissəsinə çevirir.***

SİA mövzu ilə bağlı araşdırma edib.

Aşağıda distant təhsilin geniş şəkildə tətbiq oluna bildiyi əsas sahələrin ətraflı təhlili verilir:



## Ali təhsil (bakalavr, magistratura, doktorantura)

Bu sahə distant təhsilin ən geniş istifadə olunduğu istiqamətdir.

### Niyə mümkündür?






Teoriyaya əsaslanan fənlərin çoxu rəqəmsal formada tam keçilə bilir. Universitetlərə qəbul olunmaq istəyən beynəlxalq tələbələr üçün əlçatanlıq artır. Magistr və doktorantura səviyyələrində distant seminarlar, tədqiqat rəhbərliyi effektivdir.

**Misallar:**
-Humanitar fənlər
-İqtisadiyyat və idarəetmə
-İT ixtisaslar
-Marketinq, media, hüququn bəzi sahələri



## Peşəkar inkişaf və sertifikat proqramları

Qısa müddətli kurslar distant format üçün ən uyğun təhsil növlərindən biridir.

**Sahələr:**
-Layihə idarəetməsi
-Data analiz, proqramlaşdırma
-Maliyyə və audit sertifikatları
-HR, rəhbərlik və menecment kursları

Bu kurslar işçilərin iş yerindən ayrılmadan özünü inkişaf etdirməsinə şərait yaradır.

## İT və rəqəmsal bacarıqların tədrisi

**Distant təhsilin ən uğurlu tətbiq sahəsidir.**

Nəyi əhatə edir?
-Proqramlaşdırma dilləri
-UX/UI dizayn
-Kibertəhlükəsizlik
-Data science
-Süni intellekt

İT sahəsində praktik çalışmalar onlayn laboratoriyalar və simulyatorlarla rahat şəkildə həyata keçirilir.

ARAŞDIRMA

## Xarici dil tədrisi

Onlayn dil təhsili artıq ənənəvi metodlardan daha populyar sayılır.

**Səbəblər:**
-Canlı video dərslər
-Tələffüz analiz proqramları
-Əcnəbi müəllimlərlə dərs imkanı
-Təkrarlama və öz sürəti ilə öyrənmə

İngilis, alman, türk, rus dilləri üzrə minlərlə platforma fəaliyyət göstərir.

## Orta təhsil (məktəb fənləri)

COVID-dən sonra distant məktəb təhsili modelləri çox geniş yayılıb.

**Tətbiq olunduğu hallar:**
-Sağlamlıq və ya sosial səbəblərlə məktəbə gedə bilməyən şagirdlər
-Evdə təhsil modelləri
-Müəllim çatışmazlığı olan kənd və rayon məktəbləri üçün distant dərs
-Repetitor xidmətləri

Fənlər: riyaziyyat, kimya, fizika, tarix, coğrafiya və digər nəzəri dərslər.

## Tibb və səhiyyə üzrə nəzəri təhsil

Tibbi təhsildə bəzi mərhələlər xüsusi təcrübə tələb etsə də, nəzəri blokların böyük hissəsi distant şəkildə keçilə bilir.

**Distant şəkildə verilə bilən bölmələr:**
-Anatomiya nəzəriyyəsi
-Fiziologiya nəzəriyyəsi
-Farmakologiya
-Tibb etikası
-Tibb bacıları üçün nəzəri dərslər

Praktik məşğələlər üçün isə virtual simulyatorlar geniş istifadə edilir.

## İncəsənət və yaradıcılıq sahəsi

Bir çoxları düşünür ki, bu sahələr yalnız ənənəvi şəkildə mümkündür, lakin distant format da geniş tətbiq olunur.

**Mümkün olan istiqamətlər:**
-Rəsm və rəqəmsal illüstrasiya
-Musiqi nəzəriyyəsi
-Vokal məşqləri
-Fotoqrafiya
-Kino və montaj dərsləri

Rəqəmsal alətlərin artması yaradıcı sahələri distant formata tam uyğunlaşdırıb.

## Psixologiya və konsultasiya hazırlığı

Psixoloji təhsil və təlimlərdə distant model geniş yayılıb.

**Tətbiq sahələri:**
-Psixologiya üzrə nəzəri kurslar
-Konsultasiya texnikaları
-Ailə psixologiyası
-Kouçinq və psixoterapiya təlimləri (müəllimə yönümlü)

## Biznes, marketinq və sahibkarlıq

Bu sahələr distant təhsilin ən praktik və tələb olunan istiqamətlərindəndir.

**Mövzular:**
-Rəqəmsal marketinq
-SMM
-Satış və müştəri psixologiyası
-Startap menecmenti
-Biznes planlaşdırma

Şirkətlər öz əməkdaşları üçün də onlayn korporativ təlimlər təşkil edir.

## Dövlət qulluğu və hüquq üzrə hazırlıq

Distant format hüquqi nəzəriyyənin çox hissəsinə uyğundur.

**Mümkün istiqamətlər:**
-Dövlət qulluğuna hazırlıq
-Qanunvericilik üzrə tədris
-Əmək, vergi, mülki hüquq üzrə kurslar
-Məhkəmə təcrübəsi simulyasiyaları (onlayn)

Distant təhsil artıq yalnız alternativ deyil, müasir təhsil sisteminin təməl elementlərindən biridir. Onun tətbiq sahələri:
-nəzəriyyə üstünlük təşkil edən bütün fənlər
-rəqəmsal alətlərlə işlənə bilən praktiki sahələr
-qısa müddətli peşəkar inkişaf proqramları
-məktəb, ali təhsil və əlavə təhsil sistemləri

***Ayşən Vəli***

# AXCP və Müsavatın fəaliyyətinə xitam verilməsinin vaxtı yetişib

## *İsa Qəmbər və Əli Kərimli "KQB"-nin yetişdirdiyi agentlərdir*

***Azərbaycanda qarşıdurmalar yaratmaq, iğtişaşlar törətmək üçün zaman-zaman bir sıra xarici dövlətlər planlar qurub, ssenarilər təşkil ediblər. Onların bəd niyyətləri baş tutmasa da, istəklər və arzulara davam etdirilib. Xüsusilə də, məkrli arzuların ruporları rolunda sapı özümüzdən olan baltalardan, xüsusilə də Müsavat, AXCP kimi dağıdıcı fəaliyyət yolu tutan partiya liderlərindən istifadə edilib. Ramiz Mehdiyevin dəstəsinin ifşa edilməsindən sonra bu istiqamətdə daha detallı məlumatlar üzə çıxmağa başladı. Məlum oldu ki, SSRİ "KQB"-sinin şinelindən çıxan Əli Kərimli, İsa Qəmbər sonradan Rusiyanın xüsusi xidmət orqanları ilə əlaqələr və əməkdaşlıq münasibətləri qurublar. Məlumatlara istinadən qeyd olunur ki, 35 il öncə DTK-ya işləyənlərin sonrakı dövrdə Rusiya kəşfiyyatı ilə əlaqələri davam edib. 2013-cü ildə yaradılan Milli Şuranın da əsas ideya müəllifi Rusiya xüsusi xidmət orqanları olub. Məqsəd bu qondarma qurum vasitəsi ilə Azərbaycanda dövlət çevrilişi həyata keçirib, yenidən ölkəni xaos və anarxiya girdabına salıb əzmək idi.***





Ramiz Mehdiyev işi ilə bağlı yeni faktların ortaya çıxmasından sonra bir daha aydın oldu ki, AXCP sədri tək deyil. Yəni Əli Kərimlinin yanında onun ortağı Müsavat başqanı İsa Qəmbərdir. İsa Qəmbər hələ 80-ci illərin sonunda Azərbaycanın müstəqilliyinin bərpası uğrunda meydana çıxan xalq hərakatının DTK-nın nəzarətinə keçməsində rol oynayan şəxslərdən idi. 1980-ci illərin sonlarında sovet respublikalarında azadlıq tələbi ilə meydana gələn milli hərəkatları nəzarətə götürmək istiqamətində işləyən DTK Azərbaycanda da analoji addımlar atdı. Həmin vaxt Azərbaycanda milli hərəkatda liderliyi ələ almağa yaxın təşkilatlar arasında ən fəal "Çənlibel" olsa da, bu, təşkilata nüfuz etmək imkanları məhdud olan DTK üçün sərfəli deyildi. DTK "Çənlibel"i sıradan çıxarmaq və milli hərəkatı nəzarətə götürmək məqsədilə alternativ təşkilatın yaradılması taktikasına əl atdı.

### Polyaniçkonun ən sevimli fiquru İsa Qəmbər olub

İsa Qəmbərin siyasətə gəlişində "qapı" rolunu oynayan "Gənc alimlər klubu" məhz bu məqsədlə ortaya çıxdı. "Gənc alimlər klubu"nu DTK-nın sifarişi ilə həmin vaxt Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində ikinci katib olan Viktor Polyaniçko yaratmışdı. Klubda Polyaniçkonun ən sevimli fiqurunun İsa Qəmbər olması da təsadüfi deyildi. Faktlar göstərir ki, milli hərəkatı nəzarətə götürmək üçün öz adamlarını "milli fəallar" kimi meydana daxil edən DTK hadisələrin inkişafına uyğun plan hazırlayıb. İlk hədəf meydan hadisələrini yatırtmaq idi. Bu məqsədlə meydanda "fəal" olan DTK-nın casusları mitinqlərə müdaxilə üçün zəmin hazırlayırdılar. Məlumatlara görə, İsa Qəmbər 1988-ci ilin noyabr mitinqlərinin dağıdılması üçün rəsmi strukturlara bəhanə verilməsində aktiv rol oynayanlardan olub. Mitinqlərə müdaxiləyə zəmin yaradılmasında Nümayiş Komitəsi bu prosesdə xüsusi canfəşanlıq göstərib. Əsas qərargahı Müəllimləri Təkmilləşdirmə İnstitutunda yerləşdirilən komitəyə Viktor Polyaniçkonun özü də gəlirmiş. Məlumatlara görə, komitədə əsas fəaliyyət göstərənlər İsa Qəmbər, Arif Hacıyev, Pənah Hüseynov, Fəhmin Hacıyev, Tofiq Qasımov idi.

Mitinqlər dağıdıldıqdan sonra artıq meydan DTK-nın agentlərinə qalmışdı. Azərbaycan Xalq Cəbhəsinin yaradılması, eləcə də İsa Qəmbərin ölkənin aparıcı ziyalılarının aktiv təəssübkeşi kimi "önə çıxması" da bu zaman baş verdi. SSRİ-yə qarşı mübarizə aparan AXC-nin nizamnaməsinin Bakı şəhər Partiya Komitəsində hazırlanması onun arxasında DTK-nın olduğunu təsdiq edən detallardandır. Bununla yanaşı, AXC-nin 1989-cu illərdə keçirdiyi mitinqlərdə kommunistlərin də aparıcı fiqurlar kimi çıxış etməsi təsadüfi deyildi. Misal üçün, 1989-cu il iyun ayının 4-də "Spartak" stadionunda keçirilən ilk çoxminli mitinqdə AXC-ni İsa Qəmbər və rəsmi olaraq, "Kommunist" qəzetinin redaktoru, faktiki olaraq isə Əbdürrəhman Vəzirovun kadr siyasəti üzrə müşaviri funksiyasını icra edən Cəmil Əlibəyov təmsil edirdilər.1990-cı il 20 Yanvar qırğını zamanı baş verənlər isə İsa Qəmbərin DTK-nın gizli agenti olduğuna şübhə yeri qoymadı. Açıq mənbələrdə yayılan məlumatlardan aydın olur ki, Viktor Polyaniçkonun yaratdığı, İsa Qəmbərin təmsil olunduğu "Gənc alimlər klubu" 20 yanvar faciəsinin törədilməsinə zəmin hazırlayıb. Məlumatlara görə, həmin ilin yanvar ayının ilk ongünlüyündə AXC-nin ilk konfransında parçalanma yaradan, nəticədə radikal qanadın Müdafiə Şurası yaratmasına nail olan "Gənc alimlər klubu" baş verəcəkləri izləmək üçün fəaliyyətini arxa plana çəkib.

### 20 Yanvar hadisələrindən öncə Primakov Əbülfəz Elçibəyi və İsa Qəmbəri niyə qəbul edib?

20 Yanvar hadisələri baş verərkən, daha öncə xalqı meydanlara səsləyən İsa Qəmbərin yoxa çıxması onun DTK ilə əlaqələrində əsas məqamlardan biridir. Meydan hərəkatının üzvlərindən olan Zərdüşt Əlizadənin sözlərinə görə, İsa Qəmbəri qoruyanlardan biri Yanvar qırğınının əsas təşkilatçılarından olan Yevgeni Primakov olub. 20 Yanvar hadisələrindən öncə Primakov Əbülfəz Elçibəyi və İsa Qəmbəri qəbul edib. Z.Əlizadənin sözlərinə görə, görüşdə Primakov bildirib ki, hazırkı şəraitdə xalqı küçəyə çıxarmayın. İsa Qəmbər də deyib ki, "dinc nümayişlər xalqın konstitusion hüququdur: "Primakov sonra deyib ki, "İsa çox qiymətli kadrdır, onu qoruyun". İsanın dediyi Primakovun planına uyğun idi". Məlumatlara görə, 1990-cı il yanvarın 19-da - qırğından bir gün öncə AXC-nin fəallarına divan tutulması müzakirə olunarkən, Viktor Polyaniçko İsa Qəmbər haqqında "İsa Kambar naş çelovek!" deyib və daha sonra onun qorunmasını təmin edib. Əslində Viktor Polyaniçkonun yaratdığı "Gənc alimlər klubu"nda "parlayan" İsa Qəmbərin xidmətləri qarşılığından qorunması gözlənilən idi. Yanvar hadisələri baş verəndə yoxa çıxan İsa Qəmbər Vaqif Səmədoğlunun evində çay qonaqlığında imiş. Məlumatlar var ki, İsa Qəmbəri Səmədoğlunun evinə göndərən də məhz Polyaniçko olub. Bu hadisələrdən sonra İsa Qəmbər DTK-nın təlimatı ilə Şimali Azərbaycan Demokrat Partiyasının yaratdığını elan etsə də, daha sonra Müsavat Partiyasını qurdular. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarının davam etdirilməsi kimi görünsə də, əslində DTK-nın bu mirası da öz nəzarətinə götürdüyü haqda məlumatlar var. Müsavat Partiyasının yaradılması ideyası Türkiyədə özlərini Məmməd Əmin Rəsulzadənin silahdaşı kimi qələmə verənlərdən gəlmişdi. Konkret desək, Ankarada fəaliyyət göstərən "Azərbaycan Kültür Dərnəyi" adlı qurumun üzvləri Əhməd Qaraca və Mehmet Kəngərli bu prosesdə fəallıq nümayiş etdirirdi. Əhməd Qaraca və Mehmet Kəngərli özlərini Məmməd Əmin Rəsulzadənin silahdaşı və məsləkdaşı kimi qələmə versələr də, onların 30 il ərzində Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) Türkiyə təmsilçiləri olmaları şübhəli idi. Məlumdur ki, SİTA-nın SSRİ Baş Kəşfiyyat İdarəsinin kurasiyasında olan və əsasən kəşfiyyat xarakterli məlumatlar toplayan Sovet məlumat bürosu olub. SİTA-nın müxtəlif ölkələrdəki əməkdaşları da birbaşa SSRİ kəşfiyyatı üçün məlumatların toplanması işini həyata keçirirdi. İsa Qəmbərə Müsavat Partiyasını qurması üçün xeyir-dua verənlər də Türkiyədə Rusiya kəşfiyyatına məlumat toplayan dairələr idi. Təkcə bu detal İsa Qəmbər də daxil olmaqla həmin şəbəkənin SSRİ DTK-sı tərəfindən yetişdirildiyini deməyə əsas verir.

### Müxalifətə keçəndən sonra İsa Qəmbər Rusiya kəşfiyyatı ilə əlaqələrini davam etdirib

AXC-Müsavat cütlüyünün iqtidarı dövründə hakimiyyət pillələrində irəliləyən İsa Qəmbər müxalifətə keçəndən sonra DTX-nın xələfi olan Rusiya kəşfiyyatı ilə əlaqələrini davam etdirib. Onun 1990-cı illərin sonlarında Bakı-Ceyhan layihəsinə qarşı çıxması əslində Rusiyadan gələn direktivlərdən idi. Bakı-Ceyhana qarşı Bakı-Şimali İran marşrutunu təklif edən İsa Qəmbər 1999-cu il aprelin 21-də VHP-nin qərargahında "Azərbaycan siyasətində İran faktoru" mövzusunda keçirilmiş elmi-praktiki konfransda İranın ölkəmizdəki səfirliyinin nümayəndələrinə ünvanlanmış bəyanatla çıxış etmişdi: "Ötən il Demkonqresdə razılaşmışdıq ki, Bakı-Şimali İran variantı əlverişli yoldur. Biz hakimiyyətə gəlsək, neft ixracı kəmərinin Bakı-Şimali İran variantına üstünlük verəcəyik".

Özünü Türkiyədə türkçü, Rusiyada avrasiyaçı, Avropada liberal-demokrat, İslam aləmində dindar kimi göstərən İsa Qəmbər hakimiyyətə gəlmək naminə müxtəlif donlara bürünürdü. Hərçənd, onun keçmişdən günümüzə qədər əsas bağlı olduğu tərəf Rusiya olub. DTK arxivlərinin açılmasına qarşı sona qədər dirəniş göstərməsi də bu əlaqələrinin ifşa edilməsindən qaynaqlanırdı. Hələ Əbülfəz Elçibəyin prezidentliyi dövründə DTK arxivlərinin açılması tələbi böyük idi, lakin yekunda bu addım atılmadı. Elçibəy də bildirirdi ki, arxivlər açılacağı təqdirdə komandasında təmsil olunanların çoxunun DTK ilə əməkdaşlığı ifşa olunacaq. Bu qorxu ilə yaşayanlardan biri də İsa Qəmbər idi. Sülhəddin Əkbər 2021-ci ildə mediaya verdiyi müsahibələrinin birində açıqlamışdı ki, o, Milli Təhlükəsizlik Nazirliyində müavin olduğu vaxt DTK ilə əməkdaşlıq edən şəxslərin siyahısını tərtib etsə də, Elçibəy heç bir tədbir görməyib. O bildirirdi ki, həmin siyahıda yüksək vəzifədə olan bir neçə şəxsin də adı var idi. Bu açıqlamadan sonra mediada Sülhəddin Əkbərin hazırladığı "DTK siyahısı"nda İsa Qəmbərin də adının olduğu haqda məlumatlar yayıldı.

Məlumatlara görə, DTK İsa Qəmbəri xalq hərakatında yer almış müxtəlif şəxslərlə bağlı kompromatlarla da təmin edib və sonuncu bundan bir sıra şəxslərin onun ətrafına toplanması üçün istifadə edib. AXC-Müsavat cütlüyünün iqtidardan getməsindən sonra 1992-1993-cü illərdə İsa Qəmbərin xeyir-duası ilə vəzifələrə təyin olunan şəxslərin Müsavat Partiyasına axın etməsində də şantaj edilmək qorxusu var idi. Çünki onlar Müsavata qoşulmasaydı, İsa Qəmbər əlindəki bütün kompromatları işə salacaqdı. Bu adamların İsa Qəmbərin, Arif Hacıyevin, Pənah Hüseynovun göstərişi ilə bir çox "qara iş"lərin iştirakçısı və icraçısı olduğu deyilir. Bu "qara işlər"in həm də xarici qüvvələrlə əməkdaşlıq olduğu istisna edilməməlidir. İsa Qəmbərin əsas adamlarından olan Arif Hacılının vaxtilə parlament tribunasından dedikləri də bu kontekstdə yada düşür. A.Hacılı bəyan edirdi ki, "hakimiyyətə gəlmək üçün 8 ölkə ilə razılaşıblar".

Sonradan bunların hansı ölkə olduğu və nələrin razılaşdırıldığı məlum olmasa da, deyilənlər İsa Qəmbər və dəstəsinin xarici bağlantılarının olduğunun etirafı idi. 1980-ci illərin sonlarında DTK ilə əməkdaşlığa başlayan İsa Qəmbərin 2013-cü ildə Moskvadan gələn təlimatla yaradılan Milli Şuraya qoşulması onun və onun timsalında AXC-Müsavat şinelindən çıxan bir çoxlarının hələ də Rusiya ilə gizli əlaqələrindən xəbər verir. Hazırda əməllərinə görə qanun qarşısında təkcə Əli Kərimlinin çıxarılması Azərbaycana qarşı xəyanət şəbəkəsinin tamamilə ifşa edilməsi və siyasi səhnədən silinməsini təmin edə bilməz.

Ötən əsrin 80-ci illərin sonlarından başlayaraq Rusiya kəşfiyyatı ilə geniş əlaqələr quran və bu əlaqələrə uyğun müəyyən tapşırılar yerinə yetirən Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər, Arif Hacılı, AXCP sədri Əli Kərimli və digərləri bu gündə işlək əlcək rolunda çıxışlarını davam etdirirlər. Təbii ki, bu kimi hallar "Siyasi partiyalar haqqında qanuna" və digər qanunvericilik aktlarına ziddir. Bu cür az qala cəsusluq edən şəxslərin siyasi fəaliyyətlərinə son verilir və rəhbərlik etdikləri partiyaların dövlət qeydiyyatları ləğv edilir. Bu baxımdan dövlət müvafiq addımlar atacaq və AXCP, Müsavat kimi dağıdıcı partiyaların fəaliyyətlərinə xitam verəcək. Bu hal ədalətin bərpası, haqqın qələbəsi olacaq.

***İLHAM ƏLİYEV***

# Bir lisan, bir insan: necə dil öyrənməli?

***Öyrəndiyimiz hər yeni dil qlobal karyeraya, mədəni inkişafa və beynəlxalq imkanlara yeni bir qapı açır. Mandarin dilindən tutmuş ispan dilinə qədər hər bir yeni dili öyrənmək diplomatiya, texnologiya, biznes və ya səyahət sahələrində insanlara özünəməxsus üstünlüklər təklif edir. Getdiyiniz hər ölkədə insanları anlamaq, onlarla bildikləri dildə danışa bilmək əslində böyük avantajdır, elə deyil?***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

Düzgün dili seçmək peşəkar inkişafınızı artıra və daha qarşılıqlı əlaqəli bir dünya ilə əlaqənizi dərinləşdirə bilər. Yeni bir dil öyrənmək sadəcə şəxsi nailiyyət demək deyil, bu, gələcəyinizə yaxşı planlaşdırılaraq yatırılmış sərmayədir. İstər karyeranızı növbəti səviyyəyə qaldırmaq, istər dünya miqyaslı imkanlara sahib olmaq, istərsə də yeni mədəniyyətləri araşdırmaq istəyirsinizsə, düzgün dil saysız-hesabsız imkanlar yaradır.






Dünyanın hegemon dövlətlərindən birinə çevrilən Çinin iqtisadi və texnoloji mənzərəsi yaxşı gələcək vəd edir. Beynəlxalq ticarət, texnologiya və diplomatiya karyeraları üçün bu gün dünyada Çin dilinə ehtiyac var. Mandarin dili Çin dilinin əsas və ən çox danışılan dialektidir. İlk baxışda öyrənilməsi çətin görünsə də kifayət qədər sadə qrammatikası tələffüz tonlarının və simvolların çətinliyini tarazlaşdırır. Çin dili texnologiya, maliyyə və beynəlxalq şirkətlərdə işləmək üçün çox işinizə yaraya bilər.

İspan dili ingilis dilindən sonra dünyanın ən çox danışılan ikinci ana dilidir, səyahət, biznes, həmçinin Amerika və Avropada böyük qisim əhali ilə ünsiyyət üçün çox vacibdir. İspan dili yalnız səyahət üçün deyil, həm də səhiyyə, təhsil və biznes, xüsusən də ABŞ və Latın Amerikasında əla karyera vasitəsidir.

İngilis dili beynəlxalq biznes, akademik mühit və onlayn ünsiyyətdə üstünlük təşkil edir. Beynəlxalq karyera, tədqiqat və səyahət üçün bu dili öyrənmək vacibdir. Ərəb dili qlobal enerji, siyasət və mədəniyyətin mərkəzində yerləşən Yaxın Şərq və Şimali Afrika ilə ünsiyyət qurmaq üçün vacibdir. Bu, işəgötürənlərin diplomatiya, enerji və beynəlxalq münasibətlər kimi karyeralarda axtardıqları bir dildir.

Hindistanın inkişaf edən texnologiya və biznes sektorları hind dilini dünya miqyaslı mütəxəssislər üçün strateji bir dilə çevirir. Bu, həmçinin texnologiya, biznes sahəsində inkişaf etmək, o cümlədən dünyanın ən böyük və ən qədim əhalisi olan ölkəni yaxından tanımaq üçün vacibdir. Alman və portuqal dilləri sizi dünyanın sürətlə böyüyən nüfuzlu iqtisadiyyat şirkətlərində işlə təmin edə biləcək özəllikdir.

Əgər mədəni səviyyənizi artırmaq istəyirsinizsə ispan, fransız və yapon dilləri zəngin ədəbi, vizual və populyar mədəniyyətlər haqqında dərin biliklər təmin edir. Karyera inkişafı üçün çalışırsınızsa bilin ki, ən az iki dil bilən insanların lider vəzifələri və beynəlxalq əlaqələndirici kimi mövqe tutma ehtimalı daha yüksəkdir.

Birdən çox dil öyrənmək bütün dünya ölkələrinin vətəndaşı olmaq deməkdir. Daha çox dil qlobal dünyagörüşünün inkişafına kömək edə bilər. Əgər məqsədiniz karyera, təhsil, səyahət, şəxsi inkişafdırsa biznes imkanları üçün Çin və ingilis dilləri faydalıdır, turizm, mədəniyyət üçün isə ispan və fransız. Coğrafi əlaqələriniz və perspektiviniz, Avropa ilə əlaqə planınız varsa alman və fransız, Asiyada karyera düşünürsünüzsə üçün mandarin, yapon, Koreya dillərini öyrənməlisiniz.

Resurs və imkanlara gəlincə, bəzi dillər üçün kurslar, materiallar, tədris edəcək müəllim tapmaq asandır, bəziləri üçün daha çətindir. İndi internetin verdiyi imkanlar sayəsində onlayn öyrənmə platformalarının, dil kurslarının və dəstək materiallarının sayı çox artıb. Bu imkan dilləri öyrənmə fürsətini bütün dünyaya əlçatan edib.

Hətta eyni anda bir neçə dil öyrənmək də olar, bu poliqlotlar tərəfindən məqbul hesab edilən strategiyadır, çünki müxtəlif dillər üçün qaynaqlar, kurslar, texnologiyalar genişdir. Hazırda dünyada ingilis dilində 1530 milyon, Çin dili ndə 1180 milyon, Hind dilində 610 milyon, ispanca 559 milyon, fransızca 310 milyon, ərəbcə 270 milyon, Benqal dilində 270 milyon, Portuqalca 260 milyon, rus dilində 255 milyon, urdu dilində 230 milyondan çox insan danışır. Siyahıda öz ana dili olanlar və öz ana dilindən başqa ikinci, üçüncü dil olaraq danışanların sayı əks olunub.



Dünyada ən çox ümumi danışılan dil ingilis dilidir. Bu dil dünyanın çox yerində ana dili olmayanlar tərəfindən ikinci dil olaraq istifadə olunur. Mandarin dili ən çox ana dilində danışanı olan dildir. Əsasən Çin, Tayvan və diaspora icmaları arasında danışılır. Hindistanın dili çoxsaylı əhalisi ilə əlaqədar üçüncü yerdədir.

Məhşur bir söz var: bir lisan bir insandır. Yəni nə qədər çox dil bilirsinizsə siz o qədər çox insan ehtiva edirsiniz. Çox dil bilmək beynəlxalq əməkdaşlıq, uzaqdan iş, qlobal bazarlarda rəqabəti artırır. Çoxdillilik strateji üstünlükdür, ikidən çox dil bilmək sizi daha məhsuldar, rəqabətli və geniş kommunikasiya imkanlı edir.

***Lalə Mehralı***



# Qadınlar kişiləşir, kişilər qadınlaşır...

**MƏTANƏT**

***Milli rəqslərimiz hər zaman xalqımıza başucalığı gətirib. Onlar xalqın milli xüsusiyyət və xarakterini ifadə edib hər zaman. Rəqslərimiz kişilərin igidliyindən, cəsurluğundan, qorxmazlığından, vətənpərvərliyindən, qadınların xanım-xatınlığından söhbət açıb. Bu rəqslərdəki hərəkətlər sanki zərrəbinlə hesablanıb. Kişilər üçün ayrı, qadınlar üçün ayrıca, yerli-yerində öz əksini tapıb. Milli rəqslərimizə tamasa edərkən sanki bir filmə baxırsan, onun bir başlanğıcı və sonu var. Rəqslərimiz məna, çağırış ifadə edir. Azərbaycan xalqının kişi və qadınlarına məxsusluğu ortaya qoyur.***

Bəs bu gün necə, rəqs məşğələlərində övladlarımıza hansı rəqslər öyrədilir. Bunun fərqinə varan varmı? Yoxsa müasirlik pərdəsini gözümüz önünə çəkib baş verənlərə göz yummağı qarşımıza məqsəd qoymuşuq?

Bu gün sosial şəbəkələrdə, xüsusilə Tiktokda qarşımıza çıxan rəqs videoları bizi düşünməyə vadar edir. Bəziləri üçün "nə gözəl rəqs edir", "maşallah" ifadələri ilə qarşılanan, bəziləri üçün "gör övladım necə gözəl öyrənib" kimi "qürur" yaradan hisslərə bir də milli rəqslərimizin fonunda nəzər salaq. Bu rəqslərdə Azərbaycan qadınına məxsusluqla hazırkı rəqs məşğələlərində öyrədilənləri qarşı-qarşıya qoyaq. Fərqə nəzər salaq. Və bir qədər düşünməyə çalışaq. Görək, milli rəqslərimizdən onlarda əsər-əlamət varmı? Yaxşı bunu qoyaq kənara. O mənada qoyaq ki, bəzi valideynlər deyə bilər ki, biz uşağımızı milli rəqs öyrənməyə göndərmirik ki, sadəcə rəqsi öyrənməyə göndəririk.

Elə əsas məsələ də bu zaman ortaya çıxır. Uşaqlara necə rəqslər öyrədilir, bu rəqslərdəki hərəkətləri görürsünüzmü? Baxmaq kifayət deyil, görürsünüzmü? Onlara necə rəqs öyrədildiyinin fərqindəsinizmi?

Çox təəssüf hissi ilə qeyd edim ki, artıq bu rəqsləri öyrənən yeniyetmə-gənc oğlan və qızların bəzi kliplərə də çəkildiyini görmüşük. Oğlan başlayır, öz yerini qıza verir və rəqs eyni hərəkətlərlə davam olunur. Adam baxdıqca ürəyi ikrah hissi ilə döyünür. Nə üçün döyünür? Çünki qarşımızda bizim mentalitetlə, dəyərlərlə əlaqəsi olmayan səhnə görürük. Xanım-xatınlıqdan əsər-əlaməti olmayan qadın rəqsi görürük. Kişiliyə yaraşmayan, əzilib-büzülən, ilan kimi qıvrılıb-açılan, kişidən çox qadını ifadə edən rəqsləri görürük. Sanki qadınlar kişiləşir, kişilər isə qadınlaşır. Bax, budur müasir rəqslərimizdəki "kolorit".

Rəqs gözəl, həm də əyləndirici, eyni zamanda sağlamlığa da xidmət edən bir sənət növüdür. Uşaqları kiçik yaşından rəqsə yazdırmada, əlbəttə, fayda var. Həm xüsusi istedadın ortaya çıxması, həm məşğuliyyət, əyləncə baxımından bu, gözəl bir seçimdir. Lakin uşağın əlindən tutub hər hansı rəqs müəlliminin yanına aparmaq, onun gələcək taleyini tanımadığımız bir nəfərə tapşırmaq nə dərəcədə doğrudur, bu barədə düşünürükmü? Araşdırırıqmı ki, bu rəqs müəllimi bizim uşağımıza nə öyrədəcək?

Görünən odur ki, bu barədə düşünən çox az valideyn var. Belə olmasa idi, Tiktokda, İntagramda dəqiqəbaşı oğlanlaşan qızlarla, qızlasan oğlanlarla qarşılaşmazdıq. Bu uşaqların müəllimlərinin kənardan dayanıb fərəhlə gülməsinin, utanmazcasına əl çalmasının şahidi olmazdıq.

Görəsən bu müəllim uşağa nə öyrətdiyinin fərqinə varırmı? Nəyə gülür, nə üçün qoltuqlarına qarpız yerləşir? Nəyi öyrətdiyi üçün?

Bəlkə də yanılıram, bu, elə valideynlərin seçimidir? Belə isə əsla düzgün seçim deyil. Bu gün baxmaqla doymadığınız, qızınızın oğlan hərəkətlənin ifadəsi ilə etdiyi rəqs sabah onun özünün də, sizin də utanmağınızla nəticələnəcək. Hələ bəlkə də uşaqlarınız böyüyəndə sizi məhkəməyə verəcək ki, nə üçün mənə bu rəqslərin öyrədilməsinə icazə vermişiniz. Hələ bir üstəlik də böyük bir uğur kimi çəkib sosial şəbəkələrdə də paylaşırsınız.

Axı bu qızlar gələcəkdə sevib-seviləcək, ailə quracaq, ana olacaq. Bu rəqslərin onların gələcəyinə yamaq olmasından da çəkinmirsiniz? Yoxsa heç bu barədə düşünən yoxdur...

Uşaqlara diqqət edək, bu gün istənilən boşluq sabah bizlərin çəkəcəyi əziyyət olacaq. Özlərinin əziyyətinə isə söz ola bilməz. Belə isə uşaqları öz istəyimizin, düşüncəmizin qurbanı etməyək. Qoy onlar kişiliyi-ərlik-ərənliyi, qadınlığı-xanım-xatınlığı, nazı özündə ehtiva edən Azərbaycan milli rəqslərini öyrənsinlər. İnanın, bu, həm sizə, həm övladınıza, həm də sabahımıza baş ucalığı gətirər.

SON SƏHİFƏ

SƏS

12 dekabr
2025-ci il

# Arıqlamaq istəyənlərin yeni tələsi: saxta tərkibli onlayn qidalar




Sosial şəbəkələrdə gündəlik, həftəlik və aylıq "diyet" paketləri, eləcə də sürətli arıqlama üçün müxtəlif əlavələr geniş şəkildə satılır. Bu məhsulların reklamı çoxdur və qiymətləri də kifayət qədər bahadır. Onlar adətən "təbii", "zərərsiz" və "həkim məsləhəti olmadan istifadə üçün uyğun" kimi təqdim edilir. Lakin bu tip məhsulların təhlükəsizliyi, etibarlılığı və qidalanma dəyəri ilə bağlı ciddi risklər var. Araşdırmalar göstərir ki, bəzi arıqladıcı məhsulların tərkibində gizli və sağlamlığa zərərli maddələr aşkarlanıb. Əvəzedici yemək (meal-replacement) məhsulları isə balanslı qidalanmanı tam əvəz etmir. Bəzi arıqladıcı əlavələrin qaraciyərə, ürəyə və digər orqanlara zərər verdiyi də sübut olunub. Bu səbəbdən bu məhsulları almaqdan əvvəl diqqətli olmaq və mütəxəssisə müraciət etmək vacibdir. SİA mövzu ilə bağlı araşdırma edib.

## Məhsulların təhlükəsizliyi: saxtalaşdırma və gizli maddələr

Bir çox araşdırma və yoxlamalar göstərir ki, arıqlatma məqsədilə satılan əlavələrin tərkibində bəzən etiketdə göstərilməyən dərman maddələri (məsələn, sibutramin, fenolftalein, sildenafil və s.) və ya zərərli bitki ekstraktları olur. Bu maddələr ürək-damar sisteminə, qan təzyiqinə və qaraciyərə ciddi zərər vura bilər. ABŞ Qida və Dərman Administrasiyası (FDA) belə məhsullar barədə dəfələrlə xəbərdarlıq yayıb.

## Qaraciyər, ürək və digər orqanlara təsir edən risklər

Tibbi mənbələr göstərir ki, ən çox zərər verən məhsullar arıqlama və bədən formalaşdırma məqsədilə satılan əlavələrdir. Bu əlavələrin bir qismi qaraciyər zədələnməsi, ürək problemləri və digər ciddi fəsadlara səbəb ola bilir. Bu barədə həm elmi araşdırmalar, həm də beynəlxalq qurumların xəbərdarlıqları mövcuddur.

## Əvəzedici yeməklər və qidalanma çatışmazlığı

Əvəzedici yemək (meal-replacement) və çox aşağı kalorili pəhriz məhsulları qısa müddətdə çəkinin azalmasına təsir göstərə bilər. Amma onların təhlükəsiz istifadəsi tərkibinə, kalorisinə və tibbi nəzarətə bağlıdır. Bu məhsullardan uzun müddət və həkim nəzarəti olmadan istifadə etmək vitamin-mineral çatışmazlığına və digər sağlamlıq problemlərinə səbəb ola bilər.

## Psixoloji təsirlər və "yo-yo effekti"

Sürətli arıqlama və çox sərt dietlər bəzən bədənin yenidən çəki yığmasına gətirib çıxarır. Bu proses "yo-yo effekti" adlanır. Bu hal metabolizmi zəiflədə, qarın piylənməsini artıra, insulin müqaviməti və psixoloji narahatlıq kimi problemlərə yol aça bilər.

## Sosial media reklamları, yanlış məlumat və yüksək qiymətlər

Influencer reklamları bu məhsulların sürətlə yayılmasına səbəb olur. Çox vaxt elmi sübuta əsaslanmayan fikirlər, "mütəxəssis tövsiyəsi" kimi göstərilən yanlış məlumatlar və aldatıcı reklam üsullarından istifadə edilir. Üstəlik, bu məhsulların əksəriyyəti baha satılır və istehlakçı həm pul itkisi, həm də sağlamlıq riski ilə üzləşir.

## Real nümunələr

FDA bir neçə dəfə onlayn satılan arıqladıcı məhsulların tərkibində toksik və ya gizli dərman maddələri aşkarlayıb və bununla bağlı xəbərdarlıq yayıb.

Tədqiqatlar göstərir ki, analiz olunan bir çox pəhriz əlavəsinin tərkibində sibutramin və fenolftalein kimi təhlükəli maddələr mövcuddur.

## İstehlakçılar üçün qısa yoxlama siyahısı:

1. "Möcüzə nəticə", "sürətli arıqlama" və ya "tam təbii" iddialarına inanmayın.
2. Etiketdə tam tərkib, istehsalçı adı və dozajın göstərilib-göstərilmədiyini yoxlayın.
3. Məhsulun tanınmış laboratoriyalarda (NSF, USP və s.) test edilib-edilmədiyinə baxın.
4. Əgər xəstəliyiniz varsa və dərman qəbul edirsinizsə, mütləq həkimlə məsləhətləşin.
5. Sosial şəbəkədəki rəylərə və "tövsiyəçi" videolara kor-koranə inanmayın.
6. Yan təsir hiss etdikdə məhsulu dərhal dayandırın və həkimə müraciət edin.

***Ayşən Vəli***


"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN

6 aylıq 48 AZN

1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# DİQQƏT: bu şəxslərin ölkədən çıxışına qadağa qoyula bilər

***Bəzi şəxslərə müxtəlif səbəblərdən cərimələr tətbiq edilsə də, onlar bu cərimələri vaxtında ödəməyiblər. Məsələn, karantin dövründə yazılan cərimələr hələ də çox adam tərəfindən ödənilməyib. Bəs bu və digər ödənilməmiş cərimələr şəxslərin ölkədən çıxışına məhdudiyyət yarada bilər?***






Hüquqşünas Ramil Süleymanov Metbuat.az-a açıqlamasında bildirib ki, inzibati qaydada cərimə edilmiş fiziki şəxslərin, eləcə də hüquqi şəxslərin vəzifəli şəxslərinin ölkədən çıxışına qadağa qoyula bilər: "Bu, "İcra haqqında" Qanunun 84.1-ci maddəsinə əsasən tətbiq olunur. Cərimə müəyyən edilmiş müddətdə ödənilmədikdə, icra məmuru borclu şəxsin (və ya inzibati tənbehə məruz qalmış şəxsin) ölkədən çıxışının məhdudlaşdırılması barədə məhkəməyə təqdimat verir və məhkəmə həmin təqdimat əsasında qərardad qəbul edir".


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**